934
Qurbanova İsmayel İlham

Əlavə 1

UNEC

# Azərbaycan Dövlət İqtisad Universiteti PHŞ

# (UNEC)

## İstehsalat təcrübəsinin təşkili haqqında

## MÜQAVİLƏ

№ 66/b/033

**Bakı şəhəri** "28" XII **2023-cü il**

Azərbaycan Dövlət İqtisad Universitetinin (sonra «UNEC» adlandırılacaq) Tədris üzrə prorektor dosent G.C.Musayevin şəxsində, digər tərəfdən "OCG" MMC rəhbərliyi tərəfindən təmsil olunan Rəhimli Elnur Rəhim oğlu şəxsində aşağıdakı müqaviləni imzalayırıq:

**1.Müəssisə (idarə təşkilat): "OCG "MMC**

1.1. Müəssisə, (idarə, təşkilat) təqdim olunan tədris planına əsasən 1 nəfər tələbənin **"03" may 2024-cü ildən "30" may 2024-cü ilədək** istehsalat təcrübəsi keçmələri üçün şərait yaradır.

1.2. Tələbələri təcrübə zamanı əməyin mühafizəsi və təhlükəsizlik, habelə müəssisədaxili intizam qaydaları üzrə müvafiq təlimatlarla təmin edir. Təcrübə müddətində müəssisənin təqsiri üzündən baş verə biləcək bədbəxt hadisələrə cavabdehlik daşıyır.

1.3. Tələbələrin ixtisaslarına uyğun təcrübə yerləri müəyyən edir, istehsalat təcrübəsi proqramında nəzərdə tutulmayan və onların ixtisaslarına uyğun olmayan sahələrdə işləməsinə yol vermir.

1.4. Müəssisə, təşkilat, idarənin struktur bölmələrində istehsalat təcrübəsinə rəhbərlik etmək üçün ixtisaslı mütəxəssislərdən təcrübə rəhbərləri təyin edir. Müəssisədə təcrübə rəhbəri təcrübə keçən tələbələrin davamiyyətinə, müvafiq proqram üzrə təcrübənin aparılmasına nəzarət edir.

1.5. Müəssisə tərəfindən təyin olunan təcrübə rəhbərləri təcrübə keçən tələbələri müəssisə və təşkilatların müvafiq bölmələrində tələbələrin istehsalat təcrübəsi proqramına uyğun sənədlərlə (məxfi sənədlər istisna olmaqla) tanış olmalarına və zəruri texniki avadanlıqlardan istifadə etmələrinə şərait yaradır.

1.6. UNEC tərəfindən təyin edilmiş təcrübə rəhbərlərinə müəssisə ilə razılaşdırılmış davamiyyət qrafiki əsasında tələbələrə təcrübə proqramına uyğun metodik göstərişlər vermələrinə şərait yaradır.

1.7. Müəssisədaxili təhlükəsizlik və intizam qaydalarını pozan, müəssisənin normal iş fəaliyyətinə bu və ya digər formada maneçilik göstərən tələbələr müəssisədən xaric edilməklə təhsil müəssisəsinə məlumat verilir.

1.8. İstehsalat təcrübəsi başa çatdıqdan sonra təcrübə gündəliyində hər bir tələbənin təcrübə dövründəki fəaliyyətini qiymətləndirir.

1.9. Təcrübə müddətində istehsalat müəssisəsi tərəfindən tələbələrə heç bir ödəniş həyata keçirilmir (istehsalat müəssisəsi tərəfindən əmək müqaviləsi bağlanmış tələbələrə əmək haqqı ödənilməsi istisna olmaqla).